# SENYUŞKİN SERQEY ALEKSANDROVİÇ



15 sentyabr 1957-ci ildə Samara vilayətinin Sızran şəhərində doğulmuşdur. 1974-cü ildə Sızran şəhər 21 saylı orta məktəbi bitirdikdən sonra Sızran Politexnik İnstitutuna daxil olmuşdur. 1975-ci ildə təhsilini Ali Hərbi Təyyarəçilər Məktəbində davam etdirmiş, 1979-cu ildə məktəbi bitirərək Belorusiya Hərbi Dairəsinə göndərilmişdir. 1989-cu ildə Zaqafqaziya Hərbi Dairəsindəki hərbi hissələrdən birinə komandir müavini təyin edilmişdir. Serqey Aleksandroviç birinci dərəcəli təyyarəçi, paraşüt idmanı üzrə ustalığa namizəd idi. 1992-ci ildən xidmətini Azərbaycanda davam etdirən S.Senyuşkin 843 saylı hərbi hissənin təlim məşq mərkəzinin təyyarəçi-təlimatçısı vəzifəsinə təyin edilmişdir. Mayor S.Senyuşkin Azərbaycanın Hərbi Hava Qüvvələrinin yaradılmasında yaxından iştirak edib. Təlim-Məşq Mərkəzində Mİ-24 döyüş vertolyotunun uçuşlarını həyata keçirmək üçün hərbi xidmətə gələn mülki təyyarəçiləri hazırlaşdırmaqla bərabər, erməni işğalçılarına qarşı Qarabağda aparılan döyüş əməliyyatlarında iştirak edib. Hərbi vertolyotla Xocalıya uçub, qoca, qadın və uşaqların təhlükəli zonadan çıxarılmasında böyük fədakarlıq göstərib. Lakin bu döyüşdə ağır yaralanmış və 29 fevral 1992-ci ildə həlak olmuşdur. Samara vilayətinin Sızran şəhərində dəfn edilmişdir. Ailəli idi. İki qızı var. Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı Fərmanı ilə Senyuşkin Sergey Aleksandroviç ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Bakının Xətai rayonunda adına küçə var.